Ölkəmizin turizm üçün böyük potensiala malik olması məlumdur. Amma təəssüf ki, turizm bölgələrində xidmət səviyyəsi elə də ürəkaçan deyil. Hətta bir sıra turizm zolaqlarında sanitar qovşaqları ilə bağlı ciddi problemlər yaşanır, bu da turistlərin narazılığına səbəb olmaya bilmir.

# Azərbaycanda turistləri ən çox narazı salan vəziyyət...



## İlqar Hüseynli: "Turizm dəhlizləri boyu yeni sanitar qovşaqların qurulması üçün xüsusi layihələr həyata keçirilməlidir"

Bu ciddi problemin həlli istiqamətində təxirəsalınmaz işlərin görülməsi zərurətə çevrilib.

Bu məsələni Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov da vurğulayıb. O, qeyd edib ki, turizm dəhlizləri boyunca sanitar qovşaqların olmaması regionlara gedən turistləri narahat edir.

K.Qasımovun sözlərinə görə, artıq bununla bağlı işlər görülür və yekunlaşmaq üzrədir: "Turizm dəhlizləri boyu müəyyən olunmuş sahələrdə sanitar qovşaqların tikintisi nəzərdə tutulub".

Sosial sahə üzrə tanınmış ekspert İlqar Hüseynli isə hesab edir ki, bu problem yalnız sanitar qovşaqların olmaması ilə məhdudlaşmır. Hüseynli baki-xeber.com-a açıqlamasında turistlərin qarşısını kəsən digər amillərin də olduğunu, bunlardan birinin də xidmət səviyyəsinin aşağı olması olduğunu deyib. "Turizm sektorunun əsas hissəsi özəl sektorun payına düşür, bu sahədə dövlətin payı azdır. Bu baxımdan, özəl sektor bilavasitə turistlərin cəlb edilməsində maraqlı olmalıdır ki, öz turizm potensialını, imkanlarını artırmış olsun. Hər bir turist şirkəti, turizm məkanı, otellər özlərinə nəzarət mexanizmi qurmalıdır. Turizm məkanlarında turistlərin fikirlərinin, rəylərinin qeyd edilməsi üçün sorğu sistemləri qurulmalıdır. Bu da problemin yerindəcə həllinə səbəb ola bilər. Azərbaycanda sanitar qovşaqların yenilənməsi əsasən paytaxtda və digər iri şəhərlərdə baş verir. Təəssüf ki, ucqar rayon və kəndlərin sanitar qovşağı yenilənmir, köhnələr də bərpa edilmir. Halbuki, turizm üçün əlverişli olan bölgələrin sanitar sisteminin, kanalizasiya qurğularının yenilənməsinə ciddi ehtiyac var. Çünki turistlər əsasən bölgələrə üz tutur və bölgələrdə yerləşən turizm məkanlarında onlar üçün hər cür xidmətin göstərilməsi üçün şərait yaradılmalıdır. Turizm dəhlizləri boyu yeni sanitar qovşaqların qurulması üçün xüsusi layihələr həyata keçirilməlidir. Bu sistemlərin qurulmasına qeyri-ciddi yanaşmaq olmaz. Bu olduqca vacibdir. Bəzi sahibkarlar belə məsələlərə əhəmiyyət vermək istəmirlər, amma bu onlar üçün turist itkisinə başa gələ bilər. Halbuki sahibkarların göstərdiyi xidmət mükəmməl olmalıdır ki, turistləri cəlb edə bilsin".

İ.Hüseynli hesab edir ki, turizm zolaqlarında yeni sanitar qovşaqlar yaradılarkən təbiət amilləri də nəzərə alınmalıdır.

Bu gün Xəzərətrafı bölgələrdə çox acınacaqlı vəziyyət olduğunu deyən İ.Hüseynli bildirir ki, bu sistem quraşdırılarkən onun neytrallaşdırılması üçün təmizləyici qurğuların da qoyulması önəmlidir. Kanalizasiya axıntılarının çirklənmə yaratdığını deyən İ.Hüseynlinin sözlərinə görə, bütün bunlar baş verərsə və turizm obyektlərində xidmət səviyyəsi yüksələrsə biz daha çox turist cəlb edə bilərik.

*İradə SARIYEVA*